# Zəngəzur dəhlizinin açılması uzaqda deyil



**Son günlər Zəngəzur dəhlizinin açılması istiqamətində həm qlobal, həm də regional səviyyədə ciddi müzakirələr aparılır. Azərbaycanın milli və strateji maraqları çərçivəsində olan dəhliz coğrafi baxımdan region ölkələri üçün də əlverişli imkanlar vəd edir. Dəhlizin fəaliyyətə başlaması dövlətimizin tranzit imkanlarını genişləndirməklə yanaşı, digər qonşularımızın beynəlxalq aləmə çıxışını təmin edəcək. Torpaqlarımızın işğaldan azad edilməsi bütövlükdə Cənubi Qafqazın Avrasiyanın nəqliyyat xəritəsində mövqelərini daha da möhkəmləndirilməsi istiqamətində yeni imkanlar yaradıb. Bu mənada Zəngəzur dəhlizinin açılması Orta Dəhlizin ötürücülük qabiliyyətinin daha da artırılması deməkdir.**

2020-ci il noyabr ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında imzalanan Bəyanatın 9-cu bəndindən irəli gələn tələblərin yerinə yetirilməməsi Ermənistanın öhdəliyidir. Bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutan sənəddə aydın şəkildə göstərilir ki, Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.

Vətən müharibəsindən xeyli vaxt keçməsinə baxmayaraq, qonşu dövlət Zəngəzur dəhlizinin yaradılması ilə bağlı qeyri-konstruktiv mövqe nümayiş etdirir. Dəhlizin Ermənistanın iqtisadi dalandan çıxması, qlobal iqtisadi məkana yaxınlaşması üçün böyük şans olmasına baxmayaraq, rəsmi İrəvan xarici təzyiq və təsirlər nəticəsində bu imkandan yararlanmır. Yanvarın 28-də Prezident İlham Əliyevin nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə qeyd etdiyi kimi, Ermənistan müxtəlif bəhanələr gətirərək qeyri-real və cəfəng layihələri ortaya ataraq sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğul olur.

Zəngəzur dəhlizinin bərpası Prezident İlham Əliyev tərəfindən irəli sürülüb. Faktiki olaraq uzun illərdir Azərbaycanın əsas hissəsi olan Naxçıvan blokada şəraitindədir. Kommunikasiya əlaqələrinin bərpası ilə bağlı üçtərəfli Bəyanatda müvafiq bənd öz əksini tapıb. Həmçinin dövlət başçısı bəhs olunan marşrutun keçəcəyi ərazinin tarixini nəzərə almaqla onu Zəngəzur dəhlizi adlandırıb və bu termin beynəlxalq səviyyədə qəbul olunub. Dəhlizin işə düşməsi ilə Azərbaycan ərazisindən keçməklə Rusiyadan Ermənistana dəmir yolu xəttinin açılma məsələsi də reallaşacaq. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı yaranacaq. Nəticə etibarilə bütün region ölkələri yeni infrastruktur layihəsindən fayda götürə biləcəklər.

Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan nəqliyyat marşrutlarının şaxələndirilməsinin tərəfdarıdır. Zəngəzur dəhlizinin istifadəsi nəzərdə tutulan bütün beynəlxalq platforma və layihələrin həyata keçirilməsi üçün ən münasib və rahat tranzit yoldur. Hazırda yükdaşımalar bölgəyə Mərkəzi Asiya ölkələri, o cümlədən Rusiyadan Xəzər dənizi vasitəsilə həyata keçirilir. Zəngəzur dəhlizinin açılması bu problemi həll etməklə bərabər, yeni və daha əlverişli ticarət marşrutu yaradacaq. Bu marşrutdan nəinki adıçəkilən ölkələr, hətta Çin də istifadə edəcək. Sözsüz ki, bu da regionda yeni geosiyasi və iqtisadi mühit formalaşdıracaq. Əgər Ermənistan dəhlizin açılmasına razı olarsa, yeni iqtisadi layihələrdə İrəvan da iştirak edəcək.

Son vaxtlaradək Zəngəzur dəhlizinin açılmasına mane olan əsas məqam Ermənistanın destruktiv mövqeyi idisə, bu gün qonşu dövlətin məsələyə yanaşmasında xeyli yumşalma hiss olunur. Ermənistanın baş naziri Nikol Paşinyanın son çıxışı və xalqa müraciəti bu istiqamətdə müsbət addım kimi dəyərləndirməlidir. Onun fikrincə, Ermənistan regional və qlobal logistika şəbəkələrində öz yerini tutmalıdır. Əlbəttə, bu yanaşmada onun Zəngəzur dəhlizi məsələsinə də münasibəti sezilir. Bu dəhlizin açılması ilk növbədə Ermənistan üçün ticari, iqtisadi, enerji baxımdan əlverişli olmaqla yanaşı, həm də regionda xalqlar arasında sülhə doğru irəliləmək üçün uğurlu layihədir.

Zəngəzur dəhlizi hazırkı məqamda təkcə Azərbaycanın Qərb bölgəsini Naxçıvanla birləşdirməklə, eyni zamanda Şərq-Qərb, Şimal-Cənub marşrutlarının da mühüm tərkib hissəsi olacaq. Elə bu səbəbdən də beynəlxalq miqyasda Zəngəzur dəhlizinə maraq böyükdür. Hazırda Çin, Rusiya, ABŞ, Avropa ölkələrinin əksəriyyəti, Mərkəzi Asiya dövlətləri də daxil olmaqla, dəhlizin açılmasında maraqlı tərəf kimi öz mövqelərini nümayiş etdirirlər.

Azərbaycan həmişə olduğu kimi, regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirir və ölkəmiz tərəfindən sülh sazişinin imzalanması üçün məqsədyönlü addımlar atılır. Tez bir zamanda Zəngəzur dəhlizinin açılmasında Ermənistan rəhbərliyi öz öhdəliklərini yerinə yetirsə, konstruktiv yanaşma nümayiş etdirsə, yeni nəqliyyat infrastrukturunun istifadəsi yalnız qonşu dövlətin deyil, bölgənin də simasını tamamilə dəyişəcək.

Zəngəzur dəhlizinin açılmasında ən mühüm məqamlardan biri isə türk dövlətləri arasında əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaradılmasıdır. Azərbaycanı Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyəyə birləşdirəcək dəhliz Mərkəzi Asiya ilə Avropanı, Aralıq dənizindən Böyük Çin səddinə qədər nəhəng bir ərazini əhatə edəcək. Hazırda Mərkəzi Asiyadakı türk dövlətləri Orta Dəhliz vasitəsilə Azərbaycanla əlaqələrini genişləndirir. Orta Dəhlizin Zəngəzur qolu Mərkəzi Asiya dövlətlərini Türk dünyasının aparıcı ölkəsi olan Türkiyə ilə daha qısa məsafədə birləşdirmək fürsəti yaradacaq.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 28 fevral (№ 45).- S.9.